# HƏRBİ AND

Azərbaycan Respublikasına xidmətimlə fəxr edirəm!

№ 18 (1076) 23 may 2025-ci il, Həftəlik ictimai-siyasi qəzet Qiyməti : 50 qəpik


# Şəhidlik zirvəsində onların da adı var

Qəhrəmanlıq heç vaxt bir anın bəhrəsi ola bilməz. Qəhrəmanlıq bizi illər sonra yaddaşlara əbədi yazacaq bir keyfiyyətdir. Azərbaycan xalqı, onun vətənpərvər oğul və qızları da hər zaman bu keyfiyyəti ilə seçiliblər. Biz xalq olaraq tarix boyu hər zaman şərəfli ölümlə fəxr etmişik, qorxmadan, cəsarətlə ömrümüz boyu belə ölümlərə can atmışıq. Ölümün gözünə dik baxa bildiyimiz üçün bu. Vətən, bu torpaq, bu yurd nə qədər fâciələr yaşasa da, yaşamaq haqqını itirməyib. Dediyimiz bir kəlmə söz, içdiyimiz and, verdiyimiz vəd əlimizdən tutub, bizi Vətən üçün ölümə aparsa belə, Vətən üçün bu yoldan dönməmişik. Məhz bu əzmkarlıq, mübarizlik, cəsurluq, Vətənə olan sonsuz sevgi sayəsində şəhidlik adlı zirvəni fəth edən igidlərimizin sayı artıb. Vətənpərvər oğullarımız ana torpaq tam olsun deyə hər an özlərinin ömür payını bu yolda keçməyə hazır olublar. Qəhrəmanlığı alın yazısı seçən mərd, cəsur, qorxmaz oğullarımız dünən də olub, bu gün də var, sabah da olacaq.

*Bu sayımızda söhbət açacağımız vətənpərvər oğularımızdan ikisi ilə oxucularımızı tanış edəcəyik.*

Ayxan 2015-ci ilin iyul ayında hərbi xidmətə yollanıb. Vətənin keşiyində duran gənc əsgər həm də kəşfiyyatı ixtisası üzrə kurs keçib.

Ayxan düşməndən ilk qisasını 2016-cı ilin Aprel döyüşlərində alıb. Onun kimi vətənini canından əziz tutan qəhrəmanların misilsiz hünəri hesabına uzun illər əsir düşən Tərtərin Suqovuşan, Talış, Qazaxlar, Cəbrayılın Cocuq Mərcanlı kəndləri, Goranboyun bir kəndi, Lələtəpə yüksəkliyi, ümumilikdə 2000 hektarlıq ərazi işğaldan azad olunub.

Hərbi xidməti başa çatandan sonra Ayxan ehtiyata buraxılıb. 2020-ci ilin 27 sentyabrında cəbhədə yaranan vəziyyəti eşidən kimi Müdafiə Nazirliyinə kəşfiyyatçı olduğunu və döyüşlərdə iştirak etmək istədiyini yazıb. Sentyabrın 28-də yenidən hərbi xidmətə çağırılıb. Füzuli bölgəsində Ağcabədi korpusunun könüllülər dəstəsinin tərkibində snayper kimi döyüş meydanına girib. 15 oktyabra qədər düşməndən qisasını layiqincə alıb. Şəhidlik zirvəsinə ucalan Ayxan oktyabrın 17-də boya-başa çatdığı Üçtəpə kəndində dəfn edilib.

Ayxan Cəfərov Vətən müharibəsində göstərdiyi rəşadətə görə "Vətən uğrunda", "Qubadlının azad olunmasına görə" və "Cəbrayıln azad olunmasına görə" medalları ilə təltif edilib.



**Ayxan Cəmalləddin oğlu Cəfərovun 44 günlük haqq savaşımızda göstərdiyi qəhrəmanlıqdan onun tanıyanlar qürurla danışır. Əzəldən vətənin torpağına, daşına vurğun olan Ayxan Cəfərov 1996-cı ilin sentyabrın 6-da Cəlilabad rayonunun Üçtəpə kəndində anadan olub. İkinci Qarabağ müharibəsində xüsusi qəhrəmanlıq göstərən Ayxan düşmənə qarşı son damla qanına qədər döyüşüb və 24 yaşında şəhadətə qovuşub.**



**Qəlbi vətən eşqi ilə döyünən Tosif Abdullayev 44 günlük haqq savaşımız başlayan andan göz qırpmadan düşmənə qarşı döyüşüb. Son nəfəsinə qədər ermənilərin kabusuna çevrilən Tosif ömrünün 22-ci baharında əbədiyyətə qovuşsa da, qəhrəmanlığı dillərdə dastana dönüb. İndi təkcə dünyaya göz açdığı Cəlilabad rayonunun Qara Kazımlı kəndi deyil, bütün Azərbaycan xalqı onu əsl övlad kimi ürəyində bəsləyir. Harada bir günəş müqəddəsliyi var, qəhrəman Vətən sevdalısının sorağı oradan gəlir. Əlçatmaz, ünyetməz göylərdə parlaq ulduz ömrünü yaşayan Tosif Abdullayev dövlət tərəfindən də "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" medallarına layiq görülüb.**

Mənfur düşmənin xalqımıza qarşı apardığı yersiz torpaq iddiaları, Qarabağımızın ədalətsiz işğalı bütün qeyrətli vətən övladları kimi Tosifi də narahat edib. Odur ki, 2017-ci ildə əsgərlik yaşı çatanda yağıdan qisas almaq məqsədilə ordu sıralarına gedib. Vətənin keşiyində ayıq-sayıq dayanıb, düşməndən qisas almaq üçün məqam axtarıb. Xidmət etdiyi hərbi hissədə cəsurluğu, qorxmazlığı, vətənpərvərliyi, ən əsası düşünülmüş ağıllı hərəkətləri ilə böyük hörmət sahibi olub. Təlimlərdə xüsusi fəallıq göstərib. Ürəyində bir istək vardı: mübarizə meydanında mənfur yağını qırıb zəbt edilmiş Vətən torpaqlarının və şəhidlərin qisasını almaq. Həmişə də əsgər yoldaşlarına deyib: "Qarabağımızın torpağına-daşına şəhid qanı həkk olunub. Unutmaq olmaz ki, erməni dığalarının belə bir müqəddəs yerə ayaq qoyması günahdır. Vətən öz qeyrətli övladlarından əsir Qarabağın azadlığını istəyir".

Tosif Abdullayev üzüağ əsgərliyini başa vurub. Amma Vətənin bir parçası düşmən tapdağı altında olduğu üçün dalda-bucaqda gün keçirməyi heç cür şəxsiyyətinə sığışdıra bilməyib. Elə Qarabağın azadlığı naminə həyatını hərbiyə bağlayıb. 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin Ağdam rayonunda yerləşən "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi fəaliyyətə başlayıb. Aldığı tapşırıqları, xidməti vəzifəsini ləyaqətlə yerinə yetirib. Düşmənə öz gücünü göstərməkdən ötrü cəbhə bölgələrində keçirilən sınaq təlimlərini uğurla başa vurub. Qanında vətən eşqi, torpaq sevgisi olan Tosif Abdullayev seçdiyi peşəyə görə qürur duyub, bunu özünə şərəf bilib və bildirib ki, son damla qanına qədər düşmənlə vuruşub qisas alacaq. Bunu özünə vətən qarşısında ən müqəddəs borc sayıb.

44 günlük müharibənin başlandığı ilk gündən Tosif ən qaynar nöqtələrdə düşmənlə döyüşə girib. Göstərdiyi hünər, yağıya vurduğu zərbələr gündən-günə artıb. Neçə-neçə ağır döyüşdən uğurla qayıdıb. Vətənə olan sevgisi, qəhrəmanlığı yeni-yeni zəfərlərlə nəticələnib. Oktyabrın 14-də Suqovuşanda son gülləsinə kimi düşmənə göz açmağa imkan vermir. Özü şəhid olsa da, daha bir zəfər bayrağımız göylərə ucalıb.